**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AUDİTORLAR PALATASI ŞURASININ**

**QƏRARI**

**Bakı şəhəri** **№348/3** **03 oktyabr 2022-ci il**

**“Əmlakın qiymətləndirilməsinin auditinə dair proqram” barədə**

Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 1.2-ci “Auditor fəaliyyəti ilə əlaqədar təlimatlar, tövsiyələr, metodik göstəriş və şərhlərin hazırlanması” bəndinə dair Qrafikin 6-cı “Əmlakın və biznesin qiymətlənirilməsinə dair sahəvi audit proqramlarının hazırlanması” bəndinin icrası ilə əlaqədar Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış “Əmlakın qiymətləndirilməsinin auditinə dair proqram”ın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Əmlakın qiymətləndirilməsinin auditinə dair proqram” bəyənilsin  (əlavə olunur).

2. Audit sistemimndə icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, “Əmlakın qiymətləndirilməsinin auditinə dair proqram”ın tətbiq edilməsi məqsədi ilə auditor təşkilatları və sərbəst auditorlara göndərilməsi təmin edilsin.

3. Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, “Əmlakın qiymətləndirilməsinin auditinə dair proqram”ın auditorların ixtisasartırma kursunun tədris proqramına daxil edilməsi təmin edilsin.

4. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, “Əmlakın qiymətləndirilməsinin auditinə dair proqram”ın “Audit.Qanunvericilik və normativ sənədlər” toplusunun nəşr ediləcək 11-ci cildinə daxil edilməsi təmin edilsin.

5. Bu qərarın və proqramın mətnləri Palatanın internet səhifəsində və auditorun şəxsi kabinetinin “Təlimatlar” bölməsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**